# KEÇMİŞİN FƏLSƏFƏSİ VƏ YA TARİX NECƏ YAZILIR?

*Hamlet İSAXANLI*



***Keçmiş keçib gedib. Bu məntiqi cəhətdən həqiqət olsa da, bu, o qədər də sadə həqiqət deyil. Keçib gedən bizim keçmişimizdir, biz o keçmişdən əmələ gəlmişik. Kimliyimizi, mahiyyətimizi o keçmişsiz təsəvvür etmək mümkün deyil. Biz öz keçmişimizə bağlıyıq. Biz keçmişimizin davamıyıq.***

***Bəşəriyyətin keçmişi necə olub? Bu barədə əfsanələr, miflər və tarix söz deyir. Tarix daha dəqiq məlumat verməyə çalışır. Əslində biz keçmişi tam deyil, tarixin bizə söylədiyi qədər bilirik. Başqa sözlə desək, tarixin məzmunu keçmiş haqqında bildiklərimiz, öyrənib yazdıqlarımızdan ibarətdir. Tarixin məzmunu və tutumu ayrı-ayrı şəxslərin, tarixçilərin yazıb toplaya bildiyi qədərdir. Tarix subyektivdir, nisbidir, tarix yazanların iradəsindən, ideyasından, şəxsiyyətindən, gücündən müəyyən dərəcədə asılıdır.***

***Keçmişin təbiəti və ruhu nədir? Keçmiş necə dərk olunur? Bəlkə keçmiş kəşf olunur? Keçmişin dərkində subyektivlik varsa, keçmişi öyrənən tarix nədir, elmdir, yoxsa sənət? Tarixi subyektiv edən hansı amillərdir? Tarix gözəldir, bu gözəllik öz heyranlarını yoldan, başdan çıxarmırmı, tarix təhlükə törədə bilərmi? Tarix necə yazılır və ya necə yazılsa yaxşıdır?***

***Bu və buna bənzər suallar tarixin fəlsəfəsinə aiddir. Bu yazı keçmişdə baş verənlərin dərki ilə məşğul olan tarixin mahiyyəti haqqındadır. Elm və sənətin qovşağında yer tutan tarixin fəlsəfəsi, çox güman ki, tək tarixçilərə və filosoflara deyil, bəşəri düşüncələrə dalan hər kəsə maraqlıdır.***

### Bəşəriyyətin keçmişi. Maraq və Fayda

Gündəlik qayğılar, yaxın və uzaq gələcək haqqında düşüncələr insanı nə qədər məşğul etsə də, o, keçmişə nəzər salmağı da unutmur. Ötən illəri, ötən günləri və anları anmaq insanın sanki varlığına, mahiyyətinə hopmuşdur, onun iradəsi xaricindədir. Üç zamanda yaşayır və düşünür insan. İndi, yəni bu an, keçici olsa da, həyatın baş axarı budur, budur gerçək yaşanan həyat. Gələcək haqqında düşüncələr, plan və arzular insanı gələcəyə səsləyir və gələcəyə aparır. Və əlbəttə ki, keçib gedən və bir daha geri dönməyəcək bir zamana, keçmiş xatirələrə – bu xəyal dünyasına da bağlıdır insan...



Jose Y Ortega Gasset

Ümumiyyətlə, insanın kimliyində onun xatirələr dünyası mühüm ( bəlkə də həlledici?!) rol oynayır. ***Jose Ortega Y Gasset*** (1883-1955) “insanın təbiəti yoxdur, tarixi var” deyir. Geriyə dönmək yoxdur, lakin uşaqlıq, yeniyetməlik, gənclik, dolğunluq... xatirələri ilə insan xəyalən o əlçatmaz aləmə dönə bilir; aradakı zaman uçurumunu xəyalən, düşüncənin qüdrəti ilə aşıb keçir, qayğılardan uzaqlaşır, yoxa çıxmış sevimli keçmişdə yenidən bir qədər yaşamaq, dincəlmək imkanı əldə edir.



Giambattista Vico

Tarix bəşəriyyətin, xalqların, müəyyən istək və əlamətlərə görə birləşmiş insan qruplarının uzaqlarda qalmış keçmişidir, uşaqlıq və gənclik xatirələridir. İnsan böyüyə-böyüyə, keçmişdən gələcəyə yol gedə-gedə özünü yaradır. Bütövlükdə götürülən insanlıq da belədir. Tarixsiz bəşəriyyət yoxdur. ***Giambattista Vico*** (1668-1744) demişkən, “tarix bəşəriyyətin öz-özünü yaratmasının salnaməsidir”.

Bəşəriyyət öz uşaqlığından, ibtidai cəmiyyətdən, təbiətlə vəhdətdən aralandıqca və yeni mərtəbələrə yüksəldikcə insanlar arasında ixtisaslaşma yaranır, əmək və zehni fəaliyyət bölgüsü meydana çıxır; bəlli işlər o işlərə meyli və istedadı olan bəlli adamlar tərəfindən görülməyə başlanılır. Gözəl və məntiqli danışanlar, danışa-danışa müəyyən fikri təbliğ edən, digərlərini o fikrin axarında saxlamağa çalışanlar qrupu əmələ gəlir, çalıb-oxuyub-oynayıb əyləndirənlər meydana çıxır, diqqətlə dinləməklə və xəyal gücü ilə olub-olmayanları yazanlar üzə çıxır. Keçmişi xatırlayıb ona

bəzək vuranlar, mif və əfsanə yaradanlar, tarix yazanlar meydana çıxmağa başlayır.

* * *



Marc Bloch

Keçmişin vacibliyi onun indidən birbaşa əvvəl olmasında, indiyə qədər uzanmasında, indini əmələ gətirməsindədir.

İnsanın və bəşəriyyətin özünüdərkində tarixin rolu əvəzolunmazdır. Hər insan və hər cəmiyyət dünənin, keçmişin, tarixin məhsuludur. İnsan nələrə qadirdir, bir bioloji və sosioloji varlıq olaraq kimdir insan? Keçilən yola nəzər salmadan, yəni tarixsiz bu böyük suala ağlabatan cavab tapmaq ağla sığmır. Bu kimi suallara qənaətbəxş cavab axtarışı tarix elminin inkişafını şərtləndirən əsas amillər sırasındadır. Tarix çağdaş cəmiyyəti, ümumiyyətlə dünyanı dərk etmək üçün zəruridir, tarixi hekayələr həm bizim nəyə qadir olduğumuzu, həm də məsuliyyətimizi anlamağa kömək edə bilir. "Tarix tək xəyalımızı qidalandırmır, həmçinin insanlıq hekayəsini başa düşməyə kömək edir" deyir ***Marc Bloch*** (1886-1944).



R.G. Collingwood

Tarixlə keçmiş başqa-başqa şeylərdir. Tarix keçmişin oxunuşudur. Tarixçilər və tarixin fəlsəfəsi ilə məşğul olanlar arasında "tarix keçmişin deyil, keçmiş təcrübənin, prosesin bərpasıdır" fikri qəbul olunmuş kimi görünür. Keçmiş, təbii ki, keçib gedib. Keçmiş bərpa olunmur, nə biz keçmişə gedə bilirik, nə keçmiş bu günə gələ bilir; tarixçilər sadəcə keçmişin modelini qururlar. Keçmiş sanki donub qalıb, hərəkətsizdir. Tarixçidir keçmişin qapısını döyən, o qapını azca da olsa aralayıb keçmişin təbiətini, rəngini-ruhunu anlamağa, onu dərk və şərh etməyə çalışan.

Tarix bəşəriyyətin genetikasıdır, genetik kodudur. Keçmiş indinin içində yaşayır. Dünən bu günə çevrilir. Keçmişdən törəyib indi. ***R.G. Collingwood`a*** (1889-1943) görə tarixçinin araşdırdığı keçmiş ölü deyil, müəyyən mənada hal-hazırda yaşayan, izi qalan bir prosesin bir hissəsidir. Ona görə P prosesi Q prosesinə keçibsə, P birdən birə bitməyib, Q-nün içində bir qədər davam edib, P bir proses kimi özündən sonra Q prosesində iz buraxıb. Eləcə də Q öz-özünə birdən birə başlamayıb, bir müddət P-nin içində P şəklində olub[1]. Beləliklə, Q-də yaşayan tarixçi indiki Q-nün bir zamanlar P olduğunu nəzərə alaraq araşdırmasına istiqamət verib şərhlər edə bilər.



Michael Oakeshott

Keçmişin anlaşılmasında indiki zaman həlledicidir, zəruridir; bu, bir tərəfdən bu günkü tədqiqatçı-tarixçinin öz zamanının düşüncəsi ilə dolu olmasından, digər tərəfdən isə indiki zamanda baş verənlərin keçmişi anlamaq üçün müəyyən ideyalar verə bilməsindən doğur. Məsələn, Sovetlərin dağılması zamanı baş verənlər tarixdəki imperiyaların (Roma,...) dağılması zamanı nələr baş verdiyini və necə baş verdiyini müəyyənləşdirməkdə ipucları verə bilər. ***Michael Oakeshott*** (1901-1990) "keçmiş indinin müəyyən bir oxunuşudur" deyəndə yəqin bunu nəzərdə tutturmuş. "İnsan öz atasından daha çox öz zamanına oxşayır" –bu ərəb ata sözü fərdin içində yaşadığı zamanın məhsulu olduğuna işarədir; bugünkü zaman həm fərdin, həm də tarixin fərd-tarixçi tərəfindən dərkində mühüm rol oynayır.



Michel Foucault

***Michel Foucault*** (1926-1984) fərqli düşünür, tarixin diskret olduğunu iddia edir: Hər dövrün öz tarixi var, öz başlanğıcı və öz sonu var. Yeni dövr köhnəyə heç nədə borclu deyil, sonrakına heç nə vermir, çünki tarix radikal kəsilmə ilə xarakterizə olunur. Anlayışlar birdən yaranır və birdən də yox olur.

(M. Foucault öz fikirlərini tez-tez, kitabdan kitaba dəyişdirməkdən, hətta inkar etməkdən çəkinmirdi. Filosoflara görə o, fəlsəfi suallar qoysa da, ənənəvi fəlsəfənin ərazilərindən kənarda filosofluq edirdi).

* * *

Tarix elminin, tarix üzrə araşdırmaların yaranmasının və inkişafının ən əsas səbəblərindən biri bəşər övladının bilmək həvəsi, kəşf etmək və bu yolla yaratmaq ehtirasıdır, zəka macərasıdır (hər yaradıcılıq sahəsində olduğu kimi). Əslində bu, elm adamının xüsusiyyətidir. İnsanların elmə gəlməsini ***A. Einsteyn*** (1879-1955) üç amillə izah edir: "Bəziləri öz intellektual üstünlüklərindən qürur



A. Einsteyn

[1] R.G. Collingwood. The Idea of History. An Autobiography (in Russian). Moskva, 1980.

hissi duymaq üçün elmlə məşğul olurlar; onlar üçün bu, sanki həyatın dolğunluğunu və şöhrətdən doğan məmnunluğu təmin edən idmandır [...] Bəziləri isə öz zəkalarını qazanc, fayda almaq üçün xərcləyirlər. Allahın göndərdiyi mələk gəlib bunları elm məbədindən qovsa, məbəd faciəli şəkildə boşalacaq, seyrələcək, amma boş qalmayacaq [...] Mələyin əzizlədiyi və məbəddə qalan insanların əksəriyyəti qəribə, qapalı, tənhadırlar [...] Onları elmə və sənətə gətirən – əzabverici ağırlıq və ümidsiz boşluqla dolu olan gündəlik qayğılardan uzaqlaşmaq istəyidir, öz daim dəyişən tələb və şıltaqlıqlarından uzaqlaşmaq istəyidir [...] Onlar özlərinə sadə və aydın dünya mənzərəsi yaratmağa, yaşadıqları adi dünyanı öz yeni dünyaları ilə əvəz etməyə çalışırlar. Rəssam, şair, nəzəriyyələrlə baş sındıran filosof və təbiətşünas, hərə bir cür, bununla məşğuldurlar”[2].

Tarix elmini qidalandıran daha bir güclü amil kollektiv kimlik axtarışıdır. Tarixsiz etnik, milli, dini və digər qrup kimlikləri yoxdur. Millətçilik, patriotizm kimi hisslər tarixi populyarlaşdıran, eyni zamanda onu ideoloji silah halına gətirən güvvələrdəndir.

* * *

Tarix nəyə lazımdır? Eyni sualı ədəbiyyat, müsiqi və təsviri sənətə, hətta riyaziyyatın çox mücərrəd müasir sahələrinə də aid etmək mümkündür.

Tarix maraqlıdır, adamı aludə edə bilir. Hadisələrin əslinə çox yaxın olanı təsvir etməyə çalışan və ustalıqla yazılan tarix bir çox insanlara uydurmalarla dolu olan tarixi romandan qat-qat çox maraqlı və faydalı görünür. Bu “fayda” və doğru olanı anlamaq, ona yaxınlaşmaq imkanı tarixə aid əsəri intellektual həzz qaynağına çevirir.

“Tarixin və təcrübənin verdiyi dərs budur: insanlar və hökumətlər tarixdən heç vaxt heç bir dərs almamışlar və ya ondan çıxan prinsiplər əsasında hərəkət etməmişlər”[3].

Səbəb hər hadisənin, dövrün təkrarsızlığıdır! Hər bir tarixi hadisə o qədər spesifikdir ki, əvvəlki hadisələrə görə onu proqnoz etmək, əvvəlcədən görmək mümkün olmayıb və eləcə də, onun vasitəsilə gələcəkdə ola bilənləri təxmin etmək olmur. Tarixi hadisələr arasında müəyyən bənzərlik görünsə də, bu, zahiri bənzərlikdir. Hər tarixi hadisə, hər tarixi fakt yalnız bir dəfə, həmin dövrdə, elə o cür baş vermiş yeganə hadisədir. Hegel tarixin dairəvi deyil, spiralvari hərəkət etdiyini və beləliklə hər yeni dövrdə, halqada yalnız birtərəfli baxdıqda keçmiş təkrarlanır kimi göründüyünü, əslində isə hər halqanın məzmunca yeni olduğunu irəli sürdü. (Sonuncu fikir Hegeldən əvvəl Viko tərəfindən söylənilmişdir.)

* * *

**“Tarix”** qədim semit sözüdür, mənası Ay (səma cismi - Yerin ətrafına dolanan Ay) deməkdir. Mahiyyətcə həyatda baş verən hadisələrin qeydə alınması, hesablanmasıdır. Xronologiya müəyyən etməkdir (ən qədimlərdə təqvimin əsasında Günəşin deyil, Ayın durduğu məlumdur). Məzmun cəhətdən hekayə söyləmək, anlatmaq mənasında da işlənilmişdir. “Tarix” və “ilm əl-əxbar” (xəbərlər elmi) kəlmələri eyni mənanı daşımışlar. Tarix sözünün ilk dəfə ***əl-Buxari*** (810-870) tərəfindən işlənildiyi (nüfuzlu din xadimlərinin həyat hekayələri məcmuəsinə bu adı vermişdi), “İlm əl-əxbar” ifadəsinə ***əl Xarəzmidə*** (təqribən 780-850) rast gəlindiyi deyilir.



**əl-Buxari**

***Burada (və sonralar) orta mötərizədə və ya dırnaq içində mənfi işarəli say ilə bizim eradan (ümumi eradan) əvvəl uyğun tarix göstərilir. Yəni b.e.ə 484 (ingiliscə 484 BC) əvəzinə [- 484] yazacağıq (bəzən, qarışıq düşməyəcəyi halda, mötərizəsiz mənfi işarəli say da yazıla bilər, - 484 kimi.***



**əl Xarəzmi**

“Historia” – yunanca öyrənmək, araşdırmaq deməkdir. İlk dəfə ***Herodot*** ([-484] – [-424]) öz əsərinə bu adı vermişdi. Herodotdan başlayan və İbn Xəldun istisna olmaqla yeni Avropa dövrünə qədər yazılan tarixlər əsasən üç növ qaynaq üzərində qurulurdu: 1) səyahət edən hərbçilər, tacirlər və az saylı qələm sahiblərinin öz gözləri ilə gördükləri “tarixi” hadisələrin təsviri; 2) həmin yer və hadisələr haqqında daha əvvəl yazanların əsərləri; 3) tarixçinin görmədiyi yerlərdə baş verən hadisələr haqqında müxtəlif şəxslərin söylədikləri.



**Herodot**

**Zaman, yaş və eralar**

Gündəlik həyatımızda və ömrümüz boyu vaxtı ölçürük, saatları, günləri, həftə, ay və illəri sayırıq. Eləcə də elmdə və tarixdə zaman, vaxt ölçüləri var, onlarsız elm, sənət və həyat təsəvvüredilməzdir. Saniyələrdən illərə, əsrlərə və minilliklərə uzanan vaxtı ölçə bilirik. Məlum yazılı abidələrin yaşı təqribən 5000 ildir (“Tarix Şumerdən başlayır” – “Histo-

[2]“Принципы научного исследования”; bax: А. Эйнштейн. Физика и реальность.Москва, “Наука” , 1965, с. 8

[3]G.W.F. Hegel, 1770-1831, “Tarixin fəlsəfəsi”nə girişdən

ry begins at Sumer", Samuel N. Kramer). Bu beş minillikdə insanlar öz təcrübə, bilik və hisslərini yazıya köçürüblər. Bəlli zaman kəsiyində yaşayan insanlar arasında məhz bu yolla birbaşa fikri əlaqələr qurulub. Daha qədim dövrlərlə əlaqələr isə birbaşa deyil; çox uzaq keçmişdə yaşayanlar haqqında və ümumiyyətlə, təbiət haqqında bilikləri yazıdan fərqli üsullar tətbiq etməklə əldə etməyə çalışırıq (arxeologiya, geologiya, astronomiya,...). Yaşadığımız dünya, xüsusi halda yer kürəsi hər zamanmı mövcud olub, belə deyilsə nə zaman əmələ gəlib? Günəşin, Yer kürəmizin, ümumiyyətlə kainatı təşkil edən cisimlərin, hətta kainatın özünün yaranması tarixini, onların astronomik yaşını, Yer kürəsində baş vermiş olanları ölçə bilən geoloji yaşı araşdırmağa çalışırıq. Çağdaş fizika və astronomiyanın uğurları bu ölçmələri mümkün edir.

Yerin öz oxu ətrafında fırlanma müddəti – bir gün, Yerin Günəş ətrafında dövr etmə müddəti - bir il, Ayın Yer ətrafında dövr etmə müddəti – bir Ay ayı adlanır. Bir il 365 gün 5 saat 48 dəqiqə 46.1 saniyə (0.1 saniyə dəqiqliyi ilə) və ya 365.2422 günə bərabərdir. Bir Ay ayının uzunluğu isə 29.5306 gündür. Ən qədim zamanlarda (Babilistanda, Misirdə, Çində), yəqin ki, daha rahat başa düşüldüyü üçün, Ay təqviminin işləndiyi məlumdur. Sonralar Ay-Gün və ən nəhayət Gün təqvimlərindən də istifadə etməyə başladılar.

Zamanın hesabı müəyyən bir nöqtədən, əlamətdən başlanılır. Ən qədim zamanlarda bu hesabın hakim sülalələrlə və ya hökmdarların hakimiyyəti ilə bağlı olduğu məlumdur. Belə eralar, təbii ki, müəyyən yerlə, ərazi ilə məhdudlaşırdı, yəni "yerli" idi. Sonralar başqa, daha sanballı başlanğıc, çıxış nöqtələri yer aldı.Yunanlar öz tarixlərinin hesabını Olimpiya oyunlarının təsisi [ -757] ilə bağlamışdılar. Romalılarda bu, Romanın təsisi ilə əlaqələndirilmişdi. Məsələn, Roma şəhərinin əsasının qoyulması – bu, bizim era ilə [-753]-cü il deməkdir (başqa fikirlər də var, hamısı [-758] ilə [-728] arasındadır). Çoxsaylı "Dünyanın yaranması" (yaradılışı) eraları da olub, müxtəlif zamanlarda yunanlar və onların təsir dairəsində olan bəzi ölkələrdə bu, çox zaman [-5000]-lə [-6000] arasında, bəzi hallarda isə bu yaradılış daha qədim ([-7000] ətrafında) və daha yaxın ([-3500] ətrafında) zamana aid edilirdi.

Başlandığı İsanın doğumu ilə bağlı olduğu iddia edilən era bizim era və ya ümumi era (common era) adını aldı; bu era 525-ci ildən etibarən qəbul edilib yayılmağa başlandı (yəni 1-5-ci əsrlərdə yaşayan insanların yeni eranın başlanmasından xəbərləri yox idi!). Xristianlıqla əlaqələndirilən bu era Qərbi Avropada tez yayılsa da, onun digər ölkələrdə qəbulu yeni dövrə təsadüf edir. Məsələn, Rusiyada "Dünyanın yaradılışı"(Bizans variantı) erasından yeni eraya keçid 1699-dan 1700-ə keçid ərəfəsində ***Birinci (Böyük) Pyotr****un* əmri ilə baş verdi.

İslam dininin hakim olduğu ölkələrdə hicri era qəbul edildi, bu era Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə hicrəsi (qaçışı) ili, yəni 16 iyul 622-ci illə başlanılır. Sonralar bəzi islam ölkələri və ümumiyyətlə, dünyanın böyük hissəsi xristian erasını ümumi, bizim era kimi qəbul etdilər. Bu səbəblə indi ingilisdilli qaynaqlarda B.C. və A.C. ("bizim eradan əvvəl"-b.e.ə. və "bizim eradan sonra"-b.e.s.) əvəzinə uyğun olaraq BCE və C.E. (common era, current era), yəni dini mənsubiyyəti deyil, ümumiliyi vurğulayan ifadə və abreviatura təklif edilir.



**Birinci (Böyük) Pyotr**

**Tarixdə dövrləşmə**

Tarixin dövrləşməsi şərtidir, rahatlıq, anlaşılmaq və anlatmaq üçündür. Tarix bəşəriyyətin həyat yolu olaraq arasıkəsilməzdir, dövrləşmə isə tarixi müəyyən əlamətlərə görə aralıqlara, zaman intervallarına bölməkdir. Dövrləşmə daha qədimlərdən, daha keçmişdən yaxın zamanlara uzanan yolun döngələrini göstərir (bu döngələr mühüm görünsələr və vacib olsalar da, əsasən tarixçinin təhlil süzgəcindən keçib gələn kəşfdir, yəni subyektivdir).



**F. Petrarca**

Müxtəlif xalqların, mədəniyyətlərin tarixi fərqli olduğuna görə fərqli dövrləşməyə məruz qalmalıdır. Biri üçün aydınlaşdırıcı mahiyyət daşıyan dövrləşmə digərinə görə mənasız ola bilər. ***F. Petrarca*** tərəfindən daxil edilən Renessans kəlməsi sonralar bütün Avropaya aid edildi, *avropalaşdırıldı*. Bu, Çin və ya İslam şərqinin tarixinə xas olan dövrləşmə deyil. Əsasən İtaliya üçün uyğun olan Renessans anlayışı və onun üzərində qurulan dövrləşmə Şimali Avropa üçün belə fərqlidir və o qədər də uyğun görünmür (hansı *yenidənoyanma, yenidəncanlanma*, nəyin oyanması, nəyin bərpası?). Qaranlıq Çağ termini də F. Petrarca`nın (1304-1463) kəşfidir (1330-larda), Antik dövrdən sonrakı dövrü-*Qaranlıq Çağı* bildirir. Avropalıların Qaranlıq çağı İslamın ən parlaq çağı ilə az qala üst-üstə düşür.

Orta çağ (Middle Ages) terminini 15-ci əsr İtalyan humanisti ***Flavio Biondi*** (1392-1463) daxil etdi. Tarixi antik, orta çağ və cağdaş dövr kimi üç his-



**Flavio Biondi**


Leonardo Bruni

səyə ayırmaq da həmin dövrdə baş verdi, bunu ***Leonardo Bruni`yə*** (1369-1444) aid edirlər. "Middle Ages" əvəzinə "Medieval" sözü də işlənilir[4].

"Çağdaş dövr" zaman boyu hərəkət etdikcə onu iki hissəyə-yeni və ən yeni tarixə ayırmağa başlanıldı - Modern History (Yeni tarix), Contemporary History (Ən yeni tarix). Bir zamanlar Konstantinopolun türklər tərəfindən fəthi (1453) Orta çağın (Middle Ages) sonu və Yeni çağın (Modern Era) başlanğıcı hesab olunurdu. 1789-cu il Fransız inqilabını Müasir dövrün (Modern History) başlanğıcı hesab edənlər çoxdur (bütün dünya üçün!?).

Bir sıra hallarda modern dövrün Roma İmperiyasının çöküşü (Post Roma) və ya İslam mədəniyyətinin yaranması ilə başladığını söyləyirlər. Bu üçlük, yəni Qədim (Antik) dövr, Orta çağ və Müasir dövr Avropa dövrləşməsidir, dünyanın digər hissələrinə aid deyil (hərçənd ki, sırf zaman bölümü kimi bu dövrləşmədən qlobal tarixçilər də, yəni ümumdünya tarixi ilə məşğul olanlar da istifadə etməkdədirlər).

Sülalələrə görə, idarə edən, rəhbərlik edən ailə və nəsillərə görə, rəhbər şəxslərə görə (Qaraqoyunlu və Ağqoyunlu, Səfəvilər, Osmanlı, Qacarlar, xanlıqlar, Napoleonic, Victorian, Elizabethan,...) dövrləşmə çox yayılmışdır. Bütpərəstlik, Ellinləşmə, Romanlaşma, Xristianlaşma, İslamlaşma kimi dövrlər də təbii görünür.


Eric Hobsbawm

Alətlərə, təməl əşyalara görə dövrləşmə (daş, tunc, dəmir,..) "ən qədim" tarixə və arxeologiyaya aiddir.

Və ya cəmiyyətin aparıcı məşğuliyyətinə və ya istehsal texnologiyalarına görə dövrləşmə təklif olunur: Ovçuluq-yığıcılıq; Aqrar-təsərrüfat (Şəhər-kənd əmələ gəlməyə başlayır); Sənaye; və Elm-informasiya dövrləri. Əlbəttə, bu dövrlər bir-birindən təcrid olunmuş deyil, "biri tam bitəndə o biri başlayır" fikri həqiqətdən uzaqdır. Sonrakı hər dövr əvvəlkinin içində yaranmağa və get-gedə üstünlük qazanmağa başlayır.

Rəqəm əsaslı dövrləşmə də çoxdur. Məsələn, əsrlər, minilliklər tarixdə ən çox işlənən dövr göstəriciləridir. Burada da şərtilik və uzatmalar - qısaltmalar ola bilər. Məsələn, ***Eric Hobsbawm****un* (1917-) "qısa 20-ci əsri" 1-ci dünya savaşı ilə başlayıb, sosialist sisteminin çökməsinə qədər davam edir. Hadisələrin böyüklüyü, mürəkkəbliyi baxımından 20-ci əsri "uzun 20-ci əsr" adlandıranlar da az deyil.


Hesiod

Tək tarix deyil, coğrafi bölgələşmə də Avropa süzgəcindən keçib dünyaya yayılıb. Yaxın Şərq, Orta Şərq, Uzaq Şərq Avropa terminləridir, Avrosentrizmin məhsuludur. Əslində bütün bunlar dünyada təhsil sistemlərinin (xüsusilə son iki əsr ərzində) Avropanın həlledici təsiri altında inkişaf etdiyinin təzahürüdür.

Dövrləşmə tarixçilərin, elm və sənət adamlarının əvvəlki dövrləri səciyyələndirmək üçün yaratdıqları təsnifata bağlıdır. Adətən bu bölgü və adlardan həmin dövrdə yaşayan insanların xəbəri olmur.

Tarixçilər tarixi dövrləşməni aşağıdan yuxarı, sadədən mürəkkəbə, vəhşilikdən mədəniyyətə doğru hərəkət xətti üzrə qurmağa çalışırlar. Lakin bunun tərsi də mövcuddur, xüsusilə bir sıra şair və yazıçılar, bəzi filosof və digər mütəfəkkirlər "get-gedə daha pis olur" fikri əsasında dövrləşmə təklif edirlər. Əlbəttə ki, əksər hallarda, bu "pisləşmə" mənəviyyatı nəzərdə tutur. ***Hesiod****un* (-700-lərdə yaşadığı güman edilir) "Əmək və günlər" əsərində ən qədim "qızıl" dövrdən sonra "gümüş", "gümüş"dən sonra "mis", "mis"dən sonra "qəhrəmanlıq", bu sonuncudan sonra isə dövrlərin ən pisi və dəhşətlisi - eqoizm, zorakılıq, paxıllıq və ədavət, quldurluq, əzab-əziyyət və xəstəliklərin baş alıb getdiyi "dəmir" dövrü gəlir. Bu, təbii ki, şairin yaşadığı zamanı öz içinə alan sonuncu dövr idi.

Maraqlıdır ki, Hesiod özünün "Teoqoniya" əsərində fərqli - pisdən yaxşıya doğru hərəkət üzrə fərqli bir dövrləşmə irəli sürür. Lakin bu dövrləşmə dünyanın yaranması və nizama düşməsi ilə bağlıdır, insanlara aid deyil, Xaosdan başlayıb titanlar və allahlar arasındakı münasibətlərin inkişafına əsaslanır. Bu təbii dövrləşmə allahlar cəmiyyətində demokratiyanın qurulması ilə bitir – allahlar arasında keçirilən seçkinin nəticəsində Zevs baş Allah kimi hakimiyyətə gəlir.

## Yeni dövr mütəfəkkirlərinin yeni dövrləşmə prinsipləri

Vikoya görə tarix allahlar, qəhrəmanlar və insanlar dövrünə ayrılır. Poeziya və ya allahlar dövrü irrasionallıq, dünyanın miflərlə izahı, Allahın və ya allahların fövqəlgücünə inamla səciyyələnir. Qəhrəmanlar

[4]Bernard Lewis. The Periodization of History – Excerpts. http://www.hudsonny.org/2009/02/the-periodization-of-history---excerpts.php



K. Marks

dövrü allahlarla danışa bilənlərin, allahların sevimlilərinin yarandığı dövrdür; bu zaman irrasionallıqla yanaşı rasionallıq güc qazanmağa başlayır. İnsanlar dövrü isə qəhrəmanların allahlarla yaxınlığına şübhənin əmələ gəldiyi, insanlıq və ədalət duyğularının ortaya çıxdığı, rasional düşüncənin möhkəmləndiyi dövrdür. O, digər dövrləşmə və sxemlər də verir, lakin onları mütləqləşdirmir, çevikdir. Viko antik dövrdə və ilk orta əsrlərdə irəli sürülən "tarixdə dövri olaraq təkrarlanma baş verir" fikrinə qarşı çıxaraq spiralvari dəyişmələrdən söhbət açır. Dövrlər bir-birinə bənzəyə bilər, amma dəyişikliklər var. Bu, tarixdə gələcəyi əvvəlcədən görməyin mümkün olmadığını göstərir.

***K. Marksa*** (Karl Marx, 1818-1880) görə cəmiyyət bir neçə istehsal üsullarından, iqtisadi forma və ya pillələrdən keçib. Birinci pillə ibtidai icma quruluşu adlanır. Burada mülkiyyət ümumidir, özəl deyil; kənd təsərrüfatı və şəhər sənətləri bölgüsü yoxdur, ixtisaslaşma yoxdur və ya çox zəifdir. Köçlər, miqrasiya, eləcə də insanların varlanması, rifah bu quruluşun dağılmasına səbəb olur. İkinci - Antik dövr Yunanıstan, Roma və Orta Şərqin bir qismini əhatə edir. Bu pillədə işçilər kənd və şəhər arasında bölünür. Bu dövr fəthlər və qullar dövrüdür. Qullar dövləti müdafiə etmək istəmirlər. Həmin dövrü, xüsusilə şərqi tam əhatə etmək üçün Marks "Asiya istehsal üsulu" üzərində qurulan cəmiyyətlərdən də söhbət açmışdı. Bu iki quruluşu bir-biri ilə uzlaşdırmaq marksistlər üçün başağrısına çevrildi.

Roma dağılandan sonra üçüncü – feodalizm və ya təhkimçilik (serfdom) quruluşu yarandı. Təhkimlənənlər satıla bilməzlər, amma torpaqla yaşayıb-dolana bilməyəndə, vergi verə bilməyəndə torpağı itirə bilərlər. Şəhərə axın başlayır, şəhər ticarəti güclənir. Dördüncü dövr get-gedə azad, boş işçilərin çoxalması ilə başlayır. Şəhərlə kənd arasında ticarət güclənir, kəndlərdən şəhərə gedib fabriklərdə işləyirlər. Digər tərəfdən özəl sərvət artır və böyüyür. İş həyatında təmərküzləşmə (müəyyən yerlərə cəmləşmə) və ixtisaslaşma artır. Sənayeləşmə güclənir. Kapitalistlər, sərvət sahibləri tərəfindən əməyin istismarı artır. Nəhayət, işçilərin istismarı və əşyalaşması onlarda azad olma arzusu yaradır. Bu, Marksa görə beşinci pilləyə aparır. Kapitalistlər devriləcək və yeni cəmiyyət - kommunizm əmələ gələcək. İnsanlar hər kəsə faydalı olan planlar əsasında fəaliyyət göstərəcəklər.

***Karl Jaspers*** (1883-1969) (Yaspers-oxunur) "[800] - [-200] - ci illər arasında baş verən mənəvi prosesi" "Dünya tarixinin məhvəri (oxu)" və ya "məhvər dövrü" hesab edir (adlandırır). Çində fəlsəfə -Konfusi və Lao-tszı, Hindistanda upanişadlar, Budda, İranda Zərdüşt–xeyir və şərin mübarizəsi, Yunanıstanda Homer, Parmenid, Heraklid, Platon, Aristotel, Arximed yaşayıb-yaratmışdılar. Dinlərin və fəlsəfələrin əsasları qoyulurdu. Mifoloji dövr başa çatırdı. Filosof və peyğəmbərlərin fikirləri mifdən uzaq idi. Yaspersə görə insan varlığındakı bu dəyişiklikləri "ruhlanma", "ruhun yüksəlməsi" adlandırmaq olar. Bu dövrdə sonralar zəka və şəxsiyyət adlandırılacaq şeyin kəşfi baş verdi. Filosoflar və dinyaradıcılar gəzir, görür, başqalarından (başqa mərkəzlərdən) öyrənirdilər. Bu, ideyaların və onların şərhinin bir-birinə bənzərliyinə yol açırdı. Mehvər dövrdən kənarda qalanlar tarixdən kənarda qalırlar. Mehvər dövr qalan hər şeyi assimilə edir (öz içinə alıb yox edir).



Karl Jaspers

***Arnold J. Toynbee*** (1889-1975) sivilizasiyaların dörd faza keçdiyini irəli sürür. 1-ci böyümə dövrü iqlim, ərazi-torpaq kimi amillərin meydan oxuması və insanların buna sinə gərməsi, mübarizəyə sövq olunmaları ilə səciyyələnir. 2-ci narahatlıqlar dövrü adlandırıla bilər. Bu zaman daha çox daxili amillər – keçmişi istismar etmək, milliyyətçilik, pərəstişkarlıq (şəxsiyyətə, qurumlara), yaradıcılığın zəifləməsi önə çıxır. 3-cü dövr savaşlar və üstün azlığın qurduğu universal dövlətçilik dövrüdür. Nəhayət, 4-cü dövr dağılma, parçalanmanın hökm sürməsidir. Yeni dövrdə sivilizasiyanın özünəqəsdləri az deyil – texnologiyanın bütləşdirilməsi, nüvə silahlarının yaradılması, konfliktlərin artması, milliyyətçilik, ifrat istehlakçılıq (consumerism), acgözlük, inkişaf etməkdə olan ölkələrdə səhiyyənin zəifliyi, özünümərkəzçilik və s.



Arnold J. Toynbee

***Eric Hobsbawm*** (1917-) "Triumph and transformation of capitalism" əsərində "kapitalizm və ya çağdaş dövr iki ardıcıl (dual) inqilabla - Britaniya sənaye inqilabı və Fransa siyasi inqilabı ilə başladı və 1980-90-larda kommunist rejimlərinin dağılması ilə bitdi" fikrini irəli sürdü.

Əslində xüsusi qeyd olunmalıdır ki, əvvəl elmi inqilab baş verdi (H.İ.Kopernik, Kepler,



O.Kont



Oswald Spengler

Qaliley, Nyuton). ***O.Kont*** (1798-1857) qeyd etmişkən: keçmişə nəzər salsaq görərik ki, elmlər insan ruhunu teologiya və metafizikanın uşaqlıqda (çox keçmişdə) zəruri olan, amma həddindən çox uzanmış himayəsindən azad etdilər[5].

Britaniya, Almaniya, ABŞ kimi milli iqtisadiyyatların beynəlxalq rəqabəti 1-ci Dünya Savaşına səbəb oldu. 1914-1991, bu "qısa 20-ci əsr" "İfratlar dövrü"dür ( "Age of extremes").

***A.Toynbee*** iddia edir ki, sivilizasiya dəyişirsə, o, başqa sivilizasiyaya çevrilir. Həmişə arada sərhədlər var, başlanğıc və son var. Başqa sözlə, sivilizasiyalar bir-birindən ayrıdır, bir-biri ilə kəsişmir. Toynbee`nin ideyaları ***Oswald Spengler`****inkinə* (1880-1936) yaxındır. Spenglerdə mədəniyyətlər bir-birindən tam təcrid olunmuş vəziyyətdədir. Toynbee`də cəmiyyətlər bir-birinə birləşir və bu, tarixi proseslərin kəsilməzliyini, sürəkliliyini təmin edir. Lakin Collingwood`a görə Qərb sivilizasiyası Ellin sivilizasiyasını öyrənərkən onun mənəvi-ruhi dəyərlərini mənimsəyir və onu öz ruhi aləminin bir hissəsinə çevirir. Yəni qərb sivilizasiyası Ellin sivilizasiyası ilə tam xaricdən bağlı deyil, onların münasibəti daxili xarakter daşıyır.

Qeyd: *Şəhər-dövlətlərin və ya milli dövlətlərin tarixi əvəzinə obyekt olaraq sivilizasiyaların tarixi daha həqiqətə yaxın, izah oluna bilən deyilmi?*

**Sivilizasiyaların çöküşü haqqında**

Tarixi bioloji və geoloji terminlərlə, doğulma, uşaqlıq, gənclik, yetkinlik, qocalıq və ölüm kimi dövrləşdirənlər də az olmayıb. Sivilizasiyalar (mədəniyyətlər, etnoslar?) O. Spengler, A. Toynbee, Lev Qumilev (1912-1992) kimilərin iddia etdiyinə görə biologi orqanizmlər kimi yaranır (doğulur-genezis), çiçəklənir (böyüyür), qocalır (sınır) və ölür (dağılır), yəni uşaqlıq, gənclik, yetkinlik və qocalıq dövrü keçirirlər. Bu nəzəriyyələrin bəzisi müəlliflərin nəzərincə gələcəyi öngörməyə də gətirib çıxarır (məsələn, Spenqler "Der Untergang des Abendlandes" - "Qərbin çöküşü" əsərində və Qumilev əsərlərinin böyük qismində). Bu, tarixdə pozitivizm və naturalizmin hökm sürməsi, ümumi qanunların mövcudluğu iddiasına gətirib çıxarır.

Müasir dövrdə də sivilizasiyaların ömür dövrü, aqrar sistemlərin dinamikası, demoqrafik mərhələlər, insan ruhunun inkişafı və tərəqqi kimi ideyalar əsasında həyat mərhələləri və onların riyazi modelləri üzərində çalışanlar mövcuddur.



Lev Qumilev

***L. Qumilevin*** passionar etnogenez nəzəriyyəsi əslində fərziyyədir, tarixi prosesləri etnoslarla ətraf mühitin, landşaftın qarşılıqlı təsiri və əlaqəsi kimi təsvir etməyə çalışır. Daha geniş mənada isə etnoslar əvəzinə müəyyən əlamətlərə görə birlik duyğusu olan insanlar toplusu - etnik sistemlərə baxılır; anlaşılan terminlərlə desək, məsələn xalq (türklər), superxalq (müsəlmanlar, avropalılar kimi) və subxalq (qıpçaqlar kimi) ətraf mühitlə əlaqədə köklü, mahiyyətcə dəyişmələrə məruz qalır. Passionarlıq canlı orqanizmdəki enerjinin (biokimyəvi...) gücü, artıqlığı nəticəsində bir ali məqsədə çatmaq üçün gərgin işləməyə, müəyyən ideya uğrunda qurban getməyə hazır olmaqdır. Müəyyən kütləvi mutasiyalar passionarlığı yüksəldə bilər. Bu, minlərlə kilometr uzana bilən geodezik xətt ətrafında cərəyan edir. Passionarlıq, yüksəliş, inkişaf, durğunluq və çöküş müəyyən coğrafi məkan və müəyyən zaman kəsiyində (məsələn, 1200-1500 il ərzində) baş verir (Spenglerdə bu zaman kəsiyi 1000-1200 ildir).

Bu belədirmi? Bəlkə (yəqin ki!?) heç nə ölmür, digərlərinə birləşir, yapışır, birləşdirilir, formasını dəyişir, bir formadan digərinə keçir, yəni müəyyən varislik var?! Birləşib yeniləşirlər, dağılıb dəyişirlər (yəni yenə də yeniləşirlər).

Bir neçə dəfə qeyd etdiyimiz kimi, yenilik köhnəliyin içində yaranmağa başlayır. Köhnəlik yeni, dəyişmiş, bəzən tanınmaz dərəcədə dəyişmiş libasda meydana çıxır. Yeniliyin daxil olma intensivliyi mühüm əlamətdir. Yeni sivilizasiya köhnənin mühüm dərəcədə yeniləşməsidir, forma və məzmun cəhətdən yeniləşmədir, köhnənin tam məhvi deyil.

Tarixdə tam birmənalı eniş, çöküş yoxdur. Hər eniş, çöküş bir yeniliyin başlanması, bir yaranmadır.

Elm və mədəniyyətin çöküşü, geriləməsi cəmiyyətin dəyərlərinin dəyişməsi ilə, fərdlərin mənəvi-ruhi hal və maraqlarının, psixologiyasının dəyişməsi ilə əlaqədardır. Xarici amillər ("barbarların hücumu", ikili standartlar) əsas deyil, amma onlar prosesi sürətləndirir və ya ona nöqtə qoyur...

Bir sıra mütəfəkkirlərə görə millətin xarakteri itəndə, zəifləyəndə, həzz birinci plana çıxanda, eqoizm çox artanda sivilizasiya zəifləyir və məhv olur. Xalqların taleyi hökumətlərlə, yoxsa onların xarakteri ilə müəyyən olunur? İbn Xəldunun bu barədə fikirlərinə xüsusi yer ayrılacaq.

***(Davam edəcək)***

---

[5] Раймон Арон. Этапы развития социологической мысли. Москва, Прогресс, 1993, с.17
(Raymond Aron. Les etapes de la pensee sociologique. Editions Gallimard, Paris, 1967.)